# Samuxda festival festivala qarışdı

**Samuxda "Regional İnkişaf" İctimai Birliyinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə II Ərik və Aqrar Biznes festivalları keçirilib.**



Festivallarda rayon rəhbərliyi ilə yanaşı, müxtəlif nazirlik və komitələrin məsul şəxsləri, bir neçə ali təhsil müəssisəsinin və türkdilli dövlətlərin nümayəndələri, yerli və xarici iş adamları, rayon ictimaiyyəti iştirak etmişlər.

İştirakçılar öncə Ümummilli Lider Heydər Əliyevin və Samux Şəhidləri Abidə Kompleksini ziyarət etmiş, Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinə dair fotostendlərlə tanış olmuşlar. Tədbirlər çərçivəsində qonaqlar rayonda fəaliyyət göstərən "Casa Aqro" MMC-nin təsərrüfat sahəsinə baxış keçirmiş, istehsal olunan məhsullarla tanış olmuşlar.

Festivallarla əlaqədər Samux şəhərinin mərkəzi küçə və prospektlərində, park və xiyabanlarında sakinlərin və qonaqların iştirakı ilə bayram paradı keçirilmişdir. Heydər Əliyev prospektində yeni salınan Samux parkında təşkil olunan festivallarda milli mətbəximizin təamları, fermerlərin yetişdirdikləri müxtəlif ərik növləri və onlardan hazırlanmış mürəbbələr, eləcə də ərik şirələri təqdim olunmuşdur. Ərik Festivalı çərçivəsində sənətkarların hazırladıqları stendlər, gənc idmançıların nümayiş etdirdikləri müxtəlif yarışlar, uşaqların ifasında milli rəqslər, məktəblilərin əriklə bağlı hazırladıqları əl işləri və çəkdikləri rəsmlər maraqla qarşılanmışdır.

Aqrar Biznes Festivalında isə kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlar, yeni texnologiyalar sərgilənmiş, aqrar sahədə fəaliyyət göstərən texnika, gübrə, toxum və dərmanlar nümayiş etdirilmişdir. Diqqətə çatdırılmışdır ki, festivalın keçirilməsində əsas məqsəd fermerlərin yetişdirdikləri məhsulları nümayiş etdirmək, fermer və sahibkarlar arasında işgüzar əlaqələri genişləndirmək, aqroturizm potensialını canlandırmaq, Samux əriyinin brendləşməsinə, rayonun sosial-iqtisadi və mədəni inkişafına təkan verməkdir.

Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış edərək Samuxda kənd təsərrüfatının inkişafı barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı istiqamətində gördüyü işlər, o sıradan kənd təsərrüfatına da diqqət və qayğısı nəticəsində rayonlarda bağçılıq ildən-ilə inkişaf edir. Samux rayonunda təkcə ərik bağlarının sahəsi 500 hektardan çoxdur və həmin bağlarda 16 növ ərik yetişdirilir.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə çıxışında son dövrlər ölkəmizdə müxtəlif meyvələrə həsr olunmuş festivalların keçirilməsinin ənənə halını almasından, bu cür kütləvi tədbirlərin kənd təsərrüfatı məhsullarına, xüsusən mövsümi meyvələrə marağı artırmaq baxımından əhəmiyyətindən danışmışdır.

Rəsmi hissədən sonra bayram konserti olmuş, tədbirə möhtəşəm atəşfəşanlıqla yekun vurulmuşdur.

Qeyd edək ki, Ərik Festivalının Samuxda keçirilməsi təsadüfi deyil. Azərbaycanda ən çox ərik yetişdirilən bu rayonda son dövrlər intensiv ərik bağları salınmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 24 iyun (№128).- S.11.